www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

Azərbaycan Milli Elmlər Akademiyası-80

# Repressiya



**Asif RÜSTƏMLİ**
**Filologiya elmləri doktoru, professor**

*(Əvvəli ötən saylarımızda)*

Hənəfi Baba oğlunun 20 yaşında dostuna yazdığı bu məktub onun geniş dünyagörüşlü, milli ruhlu bir gənc olduğunu təsdiqləyir.

Təəssüf ki, 1917-ci il fevral hadisələri ilə əlaqədar H.Zeynallının Moskvada Bauman adına Texniki məktəbdə təhsili yarımçıq qalır. O, 1919-cu ildə bolşeviklər partiyasına daxil olur. 1923-cü ildə Azərnəşri yaradanlardan biri olur və uzun müddət burada müxtəlif vəzifələrdə çalışır. 1922-1927-ci illərdə ADU-da təhsil alır. Prof.B.Çobanzadənin rəhbərliyi ilə Türk ədəbiyyatı tarixi və türkologiya sahəsində çalışır. ADU-nun Şərq fakültəsində və Ali Pedaqoji İnstitutda Azərbaycan ədəbiyyatını tədris edir, dosent elmi adı (1930) alır, Azərnəşrdə baş redaktor işləyir.

İlk ədəbi-tənqidi məqalələri S.S.Axundovun "Laçın yuvası" (1923), H.Cavidin "Maral" (1923), "Şeyda" (1923) əsərlərinin təhlilinə həsr olunub. Folklor mövzusunda yazdığı məqalə və kitablarından "Folklor nədir?" (1926), "Azərbaycan atalar sözləri və məsəlləri" (1926), "Azər-baycan folklorunun klassifikasiyası"(1928), "Azərbaycan tapmacaları" (1928), "Azərbaycan türk mahnıları haqqında" (1927), "Ədəbiyyat dərsləri", "Ədəbiyyat müntəxabatı" və b. əsərləri geniş oxucu auditoriyasının diqqətini cəlb etmişdir (Hənəfi Zeynallının elmi əsərlərinin siyahısı. AMEA RH Elmi irs, Fond-39, s.v.-71a, qutu-4).

Dil və Ədəbiyyat İnstitutunun ilk elmi katibi vəzifəsinə seçilmişdir. H.B.Zeynallı EA Azərbaycan Filialı Rəyasət Heyətinin 1936-cı il 7 dekabr tarixli qərarına əsasən 13 dekabr tarixli 124 saylı əmri ilə Akademiya yanında Baş ədəbiyyat idarəsinin (Qlavlit) səlahiyyətli nümayəndəsi təyin edilir.

Bu vaxta qədər isə o, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, elmi katib, Ədəbiyyat şöbəsinin rəhbəri, Folklor və ədəbiyyat sektorunun müdiri vəzifələrini paralel icra edirdi. Lakin ona dövlət sirrinin mühafizəsi istiqamətində göstərilən bu böyük etimadın müddəti çox çəkmir. Akademiyanın Rəyasət Heyəti özünün nüfuzlu alimini və Baş ədəbiyyat idarəsi üzrə səlahiyyətli nümayəndəsini əsassız böhtandan müdafiə etmək əvəzinə 1937-ci il 31 yanvar (protokol № 3) tarixli qərarı ilə İnstitutun Hənəfi Zeynallı haqqında beş gün əvvəl verilmiş ədalətsiz və əsassız əmrini təsdiqləmişdir.

O, 28 yanvar 1937-ci ildə həbs olunmuş, 29-31 yanvar tarixli istintaq prosesində "millətçi, əksinqilabçı" İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə, Əhməd Cavad, Cəfər Cabbarlı, Atababa Musaxanlı, Əliabbas Müznib, Böyükağa Talıblı, Əli Nazim, Vəli Xuluflu, Salman Müm-taz, Həsən İmanov, Əhməd Hacınski, Əhməd Triniç, Xəlil İbrahim və b. ilə sıx əlaqədə olduğuna görə ittiham edilirdi (Ziya Bünyadov. Hənəfi Baba oğlu Zeynallı / Qırmızı terror - Bakı: Azərnəşr - 1993, s. 82).

İlk vaxtlar absurd, əsassız ittihamları ciddi-cəhdlərlə rədd etsə də, təzyiq və qeyri-insani işgəncələrdən sonra fevralın 9-dan başlayaraq "etiraflar" etmiş, əksinqilabi təşkilata Ticarət İnstitutunun müəllimi Hacı Kərim Sanılını, yazıçı Cahanbaxışı, aspirant Həmid Araslını cəlb etməsi barədə məlumat vermişdir.

Hənəfi Zeynallıya "millətçi, əksinqilabçı" damğalarını vurmağı müstəntiq az hesab etmiş, ona işgəncələr vermək yolu ilə yeni-yeni cinayətlərin "etirafına" nail olmuşdur. Müttəhimin izahatlarından aydınlaşır ki, o, Azərbaycanın SSRİ-dən ayrılıb İran Azərbaycanı ilə birləşməsinin tərəfdarı olan Nərimanovçular qrupunun fəal üzvlərindəndir.

1937-ci ilin fevralında EA-nın Azərbaycan Filialında Ruhulla Axundovun rəhbərliyi ilə yaradılmış əksinqilabi təşkilatın üzvü olduğu "isbatlanmış", may ayında respublikada çevrilişə cəhddə günahlandırılmış, iyun ayında neft sənayesinə təxribatçılıqda təqsirli bilinmiş, sentyabrda terrorçuluğu dəstəkləyərək Lavrenti Beriya və Mir Cəfər Bağırova qarşı terror aktlarından xəbərdar olduğu, elm cəbhəsində ziyankar işlər gördüyü, dərsliklərin buraxılışına maneçilik törətdiyi, M.F.Axundzadənin əsərlərinin və "Molla Nəsrəddin"in nəşrini saxtalasdırdığı, "Koroğlu" dastanının materiallarını toplamaqla Azərbaycanın müstəqilliyi uğrunda mübarizə "ideyasını" qabartmağa çalışması "istintaq materialları" və müttəhimin "etirafları" ilə təsdiqlənmişdir.

Hənəfi Zeynallıya açılmış "İstintaq işi" 1937-ci il sentyabrın 20-də başa çatdırılmış, oktyabrın 11-də Ali Məhkəmənin Kollegiyası qərara almışdır ki, H.Zeynallının istintaq işi məhkəməyə təhvil verilsin və iclasda işə müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın.

Beləliklə, oktyabrın 12-də Ali Məhkəmənin Hərbi Kollegiyası Səyyar Sessiyasında Matuleviç, Zaryanov və Jiqur üçlüyünün qərarı ilə Hənəfi Baba oğlu Zeynallı əksinqilabçılıqda, millətçilikdə günahlandırılaraq 15 dəqiqəlik iclasda ən ağır cəzaya - güllələnməyə məhkum edilmişdir.

İclasda Hənəfi Zeynallı özünü müdafiə məqsədilə bir cümlə işlətmişdir: "Özümü tam günahkar hesab edirəm, təslim oluram və mərhəmət diləyirəm".

Məhkəmənin hökmü ən təhlükəli (residivist) cinayətkarlara belə tətbiq edilməyən sürətlə, tələm-tələsik, bir neçə saatdan sonra - 13 oktyabr 1937-ci ildə Bakıda icra olunmuşdur.

Hənəfi Zeynallının həyat yoldaşı Səyyarə Şərifova 6 aprel 1955-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinə müraciət edərək ərinin cinayət işinə yenidən baxılması barədə müraciət etmişdir.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 30 mart 1957-ci ildə Hənəfi Baba oğlu Zeynallının istintaq işində cinayət tərkibi olmadığına görə ona bəraət vermişdir.

+++

Siyasi repressiyaların ilk günlərindən EA Azərbaycan Filialı Dil və Ədəbiyyat İnstitutunda nizamnamə qaydalarının, insan hüquqlarının kobud şəkildə pozulmasına ilk növbədə yuxarı dairələr tərəfindən rəvac verilirdi. İnstitutun direktoru, professor A.R.Zifeldt 1937-ci il 27 yanvar tarixli 6 saylı əmri ilə Hənəfi Zeynallını institutun elmi katibi vəzifəsindən azad etdikdən sonra onun yerinə Abdulla Tağızadəni, Ədəbiyyat şöbəsinin rəhbəri vəzifəsinə isə elmi işçi Həbibulla Səmədzadəni təyin etmişdir. Əmrdə möhürün mürəkkəbi qurumamış, vəzifələrə yeni təyinat alanların təbəssümləri çöhrələrindən çəkilməmiş siyasi ab-hava çox sürətlə dəyişmiş, hüquq-mühafizə orqanlarının təpkisi və təzyiqi ilə prof.A.R.Zifeldt-Simumyaqi faktiki olaraq bir gündən sonra - yanvarın 28-də eyni ştatlarla əlaqədar təkrar əmr imzalamaq məcburiyyətində qalmışdır. Direktor bir gün əvvəl vəzifəyə qoyduğu Abdulla Tağızadəni və Həbibulla Səmədzadəni heç bir səbəb göstərmədən, hüquqi cəhətdən əsaslandırmadan işdən çıxarmış, həbs edilmələri üçün bütün maneələri aradan qaldırmalı olmusdur. O, yeni əmri ilə Zinətşah Teymurşah oğlu Zakirovu Ədəbiyyat şöbəsinin rəhbəri, Folklor və ədəbiyyat sektorunun müdiri təyin edir. Şübhəsiz ki, bu təsadüfi təyinatlar müvəqqəti xarakter daşıyırdı və əmri imzalayanların özlərinin, hətta onlara havadarlıq edənlərin taleyi sabah baş verəcək ən dəhşətli repressiya burulğanlarından sığortalanmamışdır.

1934-cü ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialı Azərbaycan Şöbəsi Ədəbiyyat Sektoruna rəhbərlik etmiş yazıçı, ictimai xadim, elm təşkilatçısı Böyükağa Mir Qasım oğlu Talıblı siyasi təqiblərə məruz qalmışdır.

***Böyükağa Mir Qasım oğlu Talıblı*** - (1897-1937) Salyanda anadan olmuş, Bakı Real məktəbində (1909-1915) təhsil almışdır.

Petroqradda Azərbaycan dilində çıxan "Hürriyyət" qəzeti redaksiyasının əməkdaşı olmuş, xalq komissarlığında milli işlər üzrə Müsəlman (Azərbaycan) şöbəsinə müdir təyin edilmişdir.

1920-ci ilin mayında Azərbaycana fəhlə-kəndli müfəttişliyi komissarının müavini vəzifəsinə göndərilmiş, sonra burada Xalq Təsərrüfatı Şurasının sədri olmuşdur. Zaqafqaziya MİK-nin katibi, Azərbaycan Xalq Ədliyyə komissarı, Mərkəzi Statistika İdarəsinin rəisi, Sovet Quruluşu və Hüquq İnstitutunun direktoru, Respublika prokuroru, Bakı Plan İdarəsinin sədr müavini, "Kommunist", "Yeni fikir" qəzetlərinin baş redaktoru vəzifələrində çalışmışdır.

Böyükağa Talıblı sərt repressiya ruzigarını ilk duyanlardan, onu öz üzərində bütün ağrı-acıları ilə hiss edən ədiblərin, ziyalıların ön dəstəsinə mənsub idi. Adı millətçilikdə tez-tez hallanırdı. "Yahşı məsləhət hər şeydən yaxşıdır" (1912), "Erkək Təkəzban" (1926), "Qırx zopa" (1927), "Keyf içində" (1929), "Dirək" (1930), "Tövbə" (1934) və s. kitabların müəllifidir.

B.Talıblı imzasız məktub əsasında 25 dekabr 1936-cı ildə "əksinqilabçı, millətçi" meyllərdə günahlandırılaraq 18 il üzv olduğu bolşeviklər partiyasından xaric edilmiş, iki həftədən sonra isə - 1937-ci il yanvarın 9-da həyat yoldaşı ilə bərabər, Azərbaycan Xalq Daxili İşlər Komissarlığı tərəfindən "zərərsizləşdirilmiş"dir.

Böyükağa Talıblı kütləvi repressiya dövründə ilk həbs edilənlərdən biri olduğu üçün izahatlarında elm, ədəbiyyat və mədəniyyət xadimlərinin adını vurğulamaqla onların gələcək talelərini zərbə altında qoyduğunu ehtimal edənlər də olmuşdur.

Müstəntiqin 1937-ci il 10 yanvar tarixli sorğu-sualında "Müsavatçılardan kimi tanıyırsınız?" sualına o, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, İbrahim Eminbəyli, Rəhim Vəkilov - deyə cavab verir. Müttəhim müsavatçılardan Seyid Hüseyn, Əhməd Cavad, Hüseyn Cavid, Əhməd Pepinov, Sultan Məcid Qənizadə və b. adını vurğulayır. Və eyni zamanda bir gerçəkliyi bildirməkdən də çəkinmir: "Onlar həmişə deyirdilər ki, Azərbaycan çar dövründə olduğu kimi, 1920-ci ildən sonra da asılı, müstəmləkə vəziyyətində qalmışdır" (Ziya Bünyadov. Böyükağa Mir Qasım oğlu Talıblı / Qırmızı terror - Bakı: Azərnəşr - 1993, s. 102).

B.Talıblının bu fikrini qəribçiliyə salmaq, onu qeyri-obyektivlikdə suçlamaq ədalətsizlik olardı. Cəfər Cabbarlı 1930-cu ildə yazdığı və sovet rejimi dövründə çap olunmayan "Papaq" satirik hekayəsində Talıblının müstəntiqlərə dediyi eyni fikri daha fərqli formada ifadə etmişdi: "Keçmişlər kimi yaşamaq yaxşı olsa idi, onda bu Nikolayı yıxmağa, yeni bir inqilab düzəltməyə nə ehtiyac vardı?! Bu vuruşmaları, bu vətəndaş müharibələrini, bu inqilab və azadlıq yolunda axan qanları kimin ayağına yazaq?" (C.Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild. "Şərq-Qərb", 2005, s.286. Tərtib edəni və ön sözün müəllifi A.Rüstəmli).

C.Cabbarlı 1934-cü ildə dünyasını dəyişməsəydi, yəqin ki, sosialist inqilabını gülüş hədəfinə çevirən bu fikirlərinə görə o, B.Talıblıdan daha sərt işgəncələrə, daha ağır cəzalara məruz qalacaqdı.

Böyükağa Talıblının isə səmimiyyəti, günahsızlığını isbatlamağa istiqamətlənmiş bütün cəhdləri istintaqı inandırmırdı. Müstəntiq Xoren Qriqoriyan dönə-dönə müsavatçıları onun "yadına" salır və istədiyinə nail olur. Bu baxımdan 23 yanvar 1937-ci il tarixində Böyükağa Talıblı ilə aparılan istintaq protokolundakı sual-cavablar diqqəti xüsusilə cəlb edir:

"*Müstəntiq:* İstintaq Sizdən tələb edir ki, tanıdığınız bütün Müsavatçıların adlarını söyləyəsiniz.

*Cavab:* Adlarını çəkdiklərimdən başqa daha heç kəsi tanımıram.

*Müstəntiq:* Düz danışmırsınız. Məhəmməd Həsən Baharlını tanımırsınızmı?

*Cavab:* Bəli, onunla 1925-1926-cı illərdən tanışam. Lakin müsavatçı olduğunu bilmirəm.

...*Müstəntiq:* Bir halda ki, siz inad edirsiniz və düz danışmaq istəmirsiniz, istintaq sizi ifşa etməyi qərara alır. Seyid Hüseyn Sadıxovu tanıyırsınızmı?

*Cavab:* Sadıxov Yazıçılar İttifaqının üzvüdür. Onu 1936-cı ildən tanıyıram. Lakin onun müsavatçı olduğu mənə məlum deyil.

*Müstəntiq:* Məhəmməd Əmin Rəsulzadənin kürəkəni kimi tanımırdınız?

*Cavab:* Tanımırdım, bu barədə ancaq Süleyman Rüstəmdən eşitmişdim.

*Müstəntiq:* Müsavatçı Musaxanlı ilə tanışsınızmı?

*Cavab:* Xeyr...

*Müstəntiq:* Əhməd Cavadı müsavatçı kimi tanıyırdınızmı?

*Cavab:* Əksinqilabi, müsavatçı ideologiyanın tərəfdarı olan şair kimi ayrı-ayrı əsərlərindən mənə məlum idi.

*Müstəntiq:* Əksinqilabi əhval-ruhiyyəli elementlərdən kimləri tanıyırsınız?

*Cavab:* Hüseyn Cavidi. Başqalarını tanımıram...

...*Müstəntiq:* Soltan Məcid Qənizadəni tanıyırsınızmı?

*Cavab:* Bu familiyanı birinci dəfə eşidirəm.

...*Müstəntiq:* Siz milli təmayülçüsünüz. Bunu etiraf edirsinizmi?

*Cavab:* Mən heç vaxt milli təmayülçü olmamışam" (Ziya Bünyadov. Böyükağa

Azərbaycan Milli Elmlər Akademiyası-80

# və ədəbiyyat

Talıblı / Qırmızı terror - Bakı: Azərnəşr - 1993, s. 102-103).

Əlbəttə, məhkumun keçmişi, sovet rejimi dönəmində yüksək vəzifələrdə xidmətləri dindirmənin ilk mərhələsində nəzərə alınaraq təzyiqlər ancaq psixoloji müstəvidə aparılır. Böyükağa Talıblı müstəntiqin "hücumlar"ına, əsəbləri qıcıqlandırmağa hesablanmış suallarına səbrlə, təmkinlə cavab verir, böhtanlara etiraz etmək imkanlarını hələ ki, özündə saxlayır.

Yuxusuzluq, rahatsızlıq, əsəb gərginliyi hiss olunur ki, yaddaşına da mənfi təsir edib. Müstəntiqin "Soltan Məcid Qənizadəni tanıyırsınızmı?" - sualına Böyükağa Talıblının "Bu familiyanı birinci dəfə eşidirəm" - deməsi təəccüb doğurmaya bilməz. Cavabın tanınmış yazıçını istintaqdan yayındırmaq niyyətilə səsləndirilməsi ehtimalı da istisna edilmir.

1937-ci ilin iyun ayından başlayaraq Böyükağa Talıblıya tətbiq edilən psixoloji təzyiq fiziki işgəncələrlə əvəzlənir. Ağır cəza üsulları tezliklə öz "bəhrəsini" verir. İyul ayının 13-də B.Talıblı XDİ komissarı Sumbatova ünvanladığı məktubda yazırdı: "Altı ay ərzində mən istintaqa səmimi ifadələr verməmişəm. İndi isə ...tamamilə təslim olub müqaviməti dayandırıram. Mən əksinqilabçı, millətçi təşkilatın üzvüyəm və bu məsələ ilə əlaqədar ətraflı ifadələr vermək istəyirəm. Mənim işim üzrə istintaqın sürətini artırmaq üçün sizin əmrinizi gözləyirəm" (Ziya Bünyadov. Böyükağa Talıblı / Qırmızı terror - Bakı: Azərnəşr - 1993, s. 104).

Əlbəttə, XDİK (Xalq Daxili İşlər Komissarlığı) həbsxanalarında bu məzmunlu "etiraflar"ı yalnız rezin dəyənəklərin, qeyri-insani işgəncələrin köməkliyi ilə almaq mümkün idi. "...Ətraflı ifadələr vermək istəyirəm" - deyən Böyükağa Talıblı 16 iyulda "əksinqilabi, millətçi təşkilatın üzvlərindən" Az.FAN Dil və Ədəbiyyat İnstitutunun direktoru Əhməd Əhmədov, 20 iyuldan 14 sentyabradək tanınmış ictimai xadim, yazıçı və şairlərdən Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, Məmməd Kazım Ələkbərli, Tağı Şahbazi, Hacıbaba Nəzərli, Səməd Mənsur, Yusif Vəzir Çəmənzəminli, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mikayıl Müşfiq, Mehdi Hüseyn, Dadaş Bünyadzadə, Ruhulla Axundov, Bəkir Çobanzadə, Əli Nazim, Salman Mümtaz, Əsəd Axundov və b. haqqında geniş izahatlar verir, onların "əksinqilabi, millətçi fəaliyyətləri" haqqında erməni müstəntiqlərinin saxta, əsassız iddialarını təsdiqləmək məcburiyyətində qalır.

Beləliklə, Böyükağa Mir Qasım oğlu Talıblı bir sıra ağır ittihamlarda, o cümlədən "əksinqilabi, millətçi fəaliyyətdə" təqsirləndirilərək SSRİ Ali Məhkəməsi Hərbi kollegiyası səyyar Sessiyasının qərarı ilə 1937-ci il oktyabrın 12-də birinci kateqoriyalı güllələnməyə məhkum olunmuş, oktyabrın 13-də isə əmr Bakı şəhərində icra edilmişdir.

B.Talıblının qızı Sona xanım atasına bəraət verilməsi ilə əlaqədar 29 may 1956-cı ildə hərbi prokurorluğa müraciət etmiş, **SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə 25 iyun 1957-ci ildə işdə cinayət tərkibi olmadığına görə Böyükağa Talıblıya ölümündən sonra bəraət verilmişdir.**

+++

**Repressiyanın pik mərhələsində Azərbaycan** ədəbiyyatşünaslığına, dilçiliyinə, tarixşünaslığına, folklorşünaslığına, türkologiya elminə, milli mədəniyyətə, qarşı total hücumlar, sistemli zorakılıq aksiyaları sənginmək bilmirdi. Dünən yüksək vəzifələrə təyin olunanlar bir gün sonra xalq düşməni elan edilərək həbs olunur, güllələnir və ya "Buzlu cəhənnəm"ə (Əmin Abid) göndərilirdi.

SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı gözləntilərin əksinə olaraq bu sahədə istisna təşkil etmirdi. Ən görkəmli elm xadimləri ciddi əsas olmadan, öncədən hazırlanan siyahılar əsasında əvvəlcə həbs edilir, sonra isə şər, böhtan xarakterli bəhanələr uydurulur, "cinayət işləri" hazırlanırdı. Onlardan biri də Elmlər Akademiyası Azərbaycan Filialı Rəyasət Heyətinin sədr müavini, Az.FAN-ın həqiqi üzvü (akademik), professor Vəli Xuluflu idi.

***Vəli Məhəmməd Hüseyn oğlu Xuluflu*** (1894-1937) - 1937-ci il 28 yanvarda həbs edilmişdir (Vəli Xuluflu. AR DTX Arxivi, İstintaq işi PR-25014, həbs orderi № 68). Axtarış aparılarkən Vəli Xuluflunun evindən M.Ə.Rəsulzadənin 1926-cı ildə İstanbulda "Milli Azərbaycan nəşriyyatı" seriyasından "Amədi" mətbəəsində ərəb əlifbası ilə çap edilmiş "Rusiyada siyasi vəziyyət" adlı kitabçası tapılır (Bu kitabçanı ilk dəfə A.Rüstəmli ərəb qrafikasından transliterasiya edərək 1994-cü ildə "M.Ə.Rəsulzadənin "Bolşeviklərin Şərq siyasəti" adlı kitabına daxil etmişdir). Müstəntiqin "bu kitabçanı haradan almısınız?" - sualına Vəli Xuluflunun cavabı öncə konkret olmur. O, müstəntiqə əvvəlcə kitabı Şaumyan adına İnstitutdan aldığını, bu barədə kitabda həmin təşkilatın möhürü olduğunu bildirir. Müstəntiq kitabda möhür olmadığını dedikdən sonra Vəli Xuluflu M.Ə.Rəsulzadənin kitabını həmkarı Hənəfi Zeynallıdan aldığını, ona da Türkiyədən professor İsmayıl Hikmətin göndərdiyini təsdiqləmişdir.

İlk baxışdan Vəli Xuluflunun həbsinin əsas səbəbi kimi M.Ə.Rəsulzadənin 1926-cı ildə İstanbulda çap edilmiş "Rusiyada siyasi vəziyyət" kitabçası qabardılsa da, bu arqument məhkumun həbsindən sonra onun evində aparılan axtarış zamanı bəlli olduğu üçün ilkin fakt ola bilməz.

Digər həbsolunma səbəbini professor Cəlal Qasımov belə təqdim edir: "...erməni alimi Kanonyan professor Vəli Xuluftudan iki dəfə xahiş edir ki, Sizdə "Koroğlu" dastanlarının bütün variantları və tarixi haqqında geniş məlumat var. Ermənilər üçün də qəhrəmanlıq rəmzi "Koroğlu" dastanları yaradılmalıdır. Azərbaycanda hakimiyyət ermənilərdədir, bu dastanı yaratmaqda köməklik elə, əks təqdirdə Sizə xətər yetişər. Erməni qorxaqlığını yaxşı bilən V.Xuluflu açıqca Kanonyana deyir ki, tarixçi alim Veliçko kitabında yazır: "Təmizqanlı ermənilər dovşandan da qorxurlar." Bundan əlavə, şair A.S.Puşkin obrazın dilindən deyir: "Tı trus, tı rab, tı armenin". Belə qorxaq xalq Koroğlu yetişdirə bilərmi? Az da olsa milli qəhrəmanınız varsa, - məsələn, Sasunlu Davud - o da təmizqanlı erməni deyildir.

Vəli Xuluflu bu əhvalatı dostlarına çatdırır ki, Kanonyan mənə belə dedi. Bu hadisədən 4 gün sonra professor Vəli Xuluflu tutuldu və xalq düşməni elan edildi. Zəngin arxivini isə Dövlət Təhlükəsizlik Komitəsinin işçiləri apardılar" (Cəlal Qasımov. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi, Bakı: Nurlan, - 2011, s.465-466).

Professor Vəli Xuluflunun həbsolunma səbəblərini sıraladıqda şübhəsiz ki, absurd variantlara da təsadüf edirik.

DTİ-nin bölmə rəisi, leytenant rütbəli müstəntiq Qalstyan professoru hətta 1928-ci ildə çap etdirdiyi "Tapmacalar" kitabındakı "Hamını bəzər, özü lüt gəzər" ifadəsi ilə SSRİ-ni nəzərdə tutmaqda günahlandırırdı.

Vəli Xuluflu 68 saylı orderə əsasən 1937-ci il 28 yanvar tarixində həbs edilsə də, iki ay yarım sonra - yalnız aprelin 16-da Voroşilov rayon partiya komitəsinin 35 saylı qərarı ilə partiya üzvlüyündən azad olunur.

Azərbaycan türklərinə xüsusi nifrət bəsləyən XDİK 4-cü şöbənin rəisi, kapitan Avanesyan 1937-ci il 1 fevral tarixli sorğusualında Vəli Xuluflunun Akademiya sistemində və ondan kənarda çalışan dostları və yaxınlarını gündəmə gətirir, yeni həbslər üçün zəmin hazırlayır.

Dindirmə protokollarının mahiyyəti ilə tanış olduqca ilk növbədə belə təəssürat yaranır ki, istintaq prosesinin qarşısında duran bir nömrəli vəzifə, müstəntiqlərin əsas məramı öncədən hazırlanmış siyahılar üzrə insanları şərləmək, ağır cinayətlərdə suçlamaq və bu qanunsuz əməlləri həyata keçirmək üçün müttəhimlərin təsdiqinə nail olmaqdan ibarətdir. İşgəncələr, fiziki güc tətbiq etmək yolu ilə müstəntiqlər demək olar ki, əksər hallarda məqsədlərinə "müvəffəqiyyət"lə çatmışlar. Bu istiqamətdə müttəhim Vəli Xuluflu da istisna təşkil etmirdi.

V.M.Xuluflu gizli, əksinqilabi, millətçi təşkilatın üzvü olmaqda, silahlı üsyan hazırlamaqda, partiya və hökumət rəhbərlərinə, o cümlədən Bağırova qarşı terror aktları təşkil etməkdə günahlandırılırdı.

Onun cinayət işinə 12 oktyabr 1937-ci ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyasında saat 18:00-da baxılmağa başladı. Qapalı Məhkəmə saat 18:20-də isə başa çatdı. Qərarda deyilirdi: "Vəli Məhəmməd Hüseyn oğlu Xuluflu şəxsi əmlakı müsadirə olunmaqla ən ağır cəzaya - güllələnməyə məhkum edilsin". Məhkəmənin hökmü 13 oktyabr 1937-ci ildə Bakıda icra olunmuşdur.

Vəli Məhəmməd Hüseyn oğlunun həyat yoldaşı, xalq düşməninin arvadı statusunda 8 il cəza çəkmiş Fatma Xuluflunun Moskvaya çoxsaylı müraciətlərindən sonra 17 noyabr 1956-cı ildə Vəli Vuluflıya bəraət verilmişdir.

**Bəkir Vahab oğlu Çobanzadə** (1893-1937) - SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının həqiqi üzvü - akademiki idi. O, fransız, alman, macar, türk, ərəb, fars, rus dillərini mükəmməl bilirdi. B.Çobanzadə Dil və Ədəbiyyat İnstitutunun 1937-ci il 14 fevral tarixli 9 saylı əmri ilə iki həftə əvvələ aid tarixlə - 28 yanvarda elmi işçilərin siyahısından xaric edilir. İnstitut direktorunun əmri gec imzalamasının əsas səbəbi isə Bəkir Çobanzadənin həbs olunması haqqında onun iş yerinə vaxtında xəbər verilməməsi ilə bağlı olmuşdur. Çünki professor 3 aylıq məzuniyyətə çıxaraq Azərbaycandan uzaqlarda - Kislovodskinin "Qornyak" (Mədən fəhləsi) sanatoriyasında həyat yoldaşı, Bakı Opera Teatrının aktrisası Ruqiyyə xanım Abdulina ilə müalicə olunurdu. Lakin Bakı çekistlərinin hökmü "Qornyak"ın müalicə korpusuna da çata bildi. Prof. Bəkir Çobanzadə 28 yanvar 1937-ci ildə həbs edilərək əvvəl Pyatiqorski həbsxanasında saxlanılır, sonra isə Bakıya gətirilərək istintaqa təhvil verilir.

1937-ci il fevral ayının 7-dən başlayan istintaq B.Çobanzadəni "əksinqilabi, millətçi mövqedə" dayanmaqda ittiham edir. O, martın 5-də verdiyi izahatda deyirdi: **"Həbs olunan günədək mən əksinqilabi,** millətçi mövqedə durmuşam və SSRİ-dən ayrılmaq şərti ilə türk-tatar xalqlarının vahid, müstəqil dövlət halında birləşməsi (Vahid Turan Dövləti) məqsədini qarşıya qoymuşam" (Ziya Bünyadov. Bəkir Vahab oğlu Çobanzadə. Qırmızı terror. - Bakı: Azərnəşr, - 1993, s.91).

B.Çobanzadə "əksinqilabi və millətçi" mövqedə dayanan tanınmış, görkəmli fikirdaşlarından Vəli Xuluflu, Əli Nazim, Həsən İmanov, Əziz Qubaydullin, Salman Mümtaz, Ruhulla Axundov, İdris Həsənov, A.R.Zifeldt, A.V.Baqri, A.S.Bukuşpan, Mədinə Qiyasbəyli, Fərhad Ağazadə, Əli Səbri Qasımov, Əli Sultanlı, İsmayıl Əlizadə, Feyzulla Qasımzadə, Atababa Musaxanlı, Hənəfi Zeynallı, Abdulla Tağızadə, Xalid Səid Xocayev, Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, Ələsgər Ələkbərov, Soltan Məcid Qənizadə, Həmid Şahtaxtinski, Pənah Qasımov, Qafur Rəşad, Qantəmir və b. istintaq prosesində adlarını vurğulayır.

Bəkir Çobanzadə 28-29 iyul 1937-ci ildə Türküstan milli-azadlıq hərəkatının liderlərindən biri, RSFSR Xalq Komissarlar Soveti sədrinin milli məsələlər üzrə müavini, 1921-1922-ci illərdə Azərbaycanda Xalq Komissarlığının milli məsələlər üzrə səlahiyyətli nümayəndəsi işləmiş Turar Rıskulov (1894-1938) haqqında izahat verir. T.Rıskulov 1937-ci il may ayınadək RSFSR Xalq Komissarları Soveti sədrinin müavini vəzifəsində çalışmış, may ayının 21-də isə onu Kislavodskdakı sanatoriyada həbs edirlər. Ondan əvvəl isə, 1937-ci il yanvarın 28-də həmin yerdə Turanın məslək dostu, professor Bəkir Çobanzadə həbs olunmuşdur.

Bəkir Çobanzadə T.Rıskulovla yanaşı, təzyiq altında A.R.Zifeldt-Simumyaqi, Yusif Vəzir Çəmənzəminli və b. haqqında da xüsusi izahatlar vermişdir.

Sentyabr ayının 2-dək müstəntiqlər tərəfindən işgəncələrə məruz qalaraq 32 dəfə dindirilən, hətta dövlət çevrilişi, terror, sui-qəsd və b. cinayətlərdə "günahlarını etiraf edən" professor Bəkir Çobanzadə bağışlanması üçün Azərbaycan Xalq Daxili İşlər komissarı Yuvelyan Davıdoviç Sumbatov-Topuridzeyə (1889-1960) ünvanladığı ərizəsində yazırdı: "Mən öz ixtisasım üzrə sovet Şərqinin ilk professoruyam, bu ada sovet hökuməti tərəfindən layiq görülmüşəm və bu ölkədə ilk dəfə ana dilində mühazirə oxumuşam.

Bütün elmi fəaliyyətim dövründə təxminən 150 elmi əsər yazmışam. Onların 100-ü Azərbaycan dili və ədəbiyyatı problemlərinin elmi əsaslarına həsr edilmişdir. Yüzlərlə dilçi və ədəbiyyatşünas, mütəxəssis hazırlamışam", - deyə vurğulayırdı.

Professor Bəkir Çobanzadənin "cinayət işi" ilə əlaqədar 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının iclası oldu (İclas saat 11:20 dəqiqədə başlandı və ənənəvi olaraq cəmi 20 dəqiqəyə - saat 11:40-da sona yetdi). B.Çobanzadə son sözündə ona güzəşt olunmasını, bağışlanılmasını xahiş etdi. Lakin məhkəmə heyətinin əhval-ruhiyyəsi günahsız alimin qətlinə köklənmişdi. 1937-ci il oktyabr ayının 12-də B.Çobanzadə güllələnməyə məhkum olundu. Bu əsassız və ən ağır cəzanın oktyabrın 13-də Bakıda icra olunduğu barədə cinayət işinə arayış da əlavə edilmişdir...

B.Çobanzadənin xanımı Ruqiyyə xanım Abdulina üç ilə yaxın SSRİ-nin ali orqanlarına sorğu və şikayət ərizələri ilə müraciət etdikdən sonra 1957-ci ilin iyun ayının 6-da Ali Məhkəmənin Hərbi Kollegiyasının qərarına əsasən Bəkir Vahab oğlu Çobanzadənin işində cinayət tərkibi olmadığına görə ona "xalq düşməni" kimi güllələnməsindən 20 il sonra bəraət verilmişdir.

**(Ardı var)**